# 2015-ci ildə Bakıda keçiriləcək ilk Avropa Oyunları Təşkilat Komitəsinin ikinci iclası olmuşdur



İyunun 25-də Bakıda keçirilən ilk Avropa Oyunları Təşkilat Komitəsinin iclasında Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva qarşıda duran vəzifələrdən danışaraq qeyd etmişdir ki, Azərbaycan dövləti bu oyunların hazırlanmasına və keçirilməsinə çox böyük diqqətlə yanaşır. Bu il fevral ayının 2-də cənab Prezident İlham Əliyevin iştirakı ilə keçirilən birinci iclasdan sonra bir sıra hazırlıq işləri aparılmışdır.

Mehriban xanım Əliyeva qeyd etmişdir ki, 2015-ci ildə ölkəmizdə ilk dəfə Avropa Oyunları keçiriləcəkdir. Baxmayaraq Olimpiya hərəkatı ilk dəfə Avropada doğulub və sonra yenidən Avropada bərpa olunub. Azərbaycanda birinci dəfə Avropa oyunları keçiriləcəkdir. Biz çalışmalıyıq ki, bu oyunlar ən yüksək səviyyədə hazırlansın və ən yüksək səviyyədə keçirilsin. Bu, Avropanın idman hərəkatı tarixində yeni bir dövrün başlanmasıdır və Azərbaycan belə tarixin ilk səhifələrini yazan ölkədir.





Oyunların başlanmasına cəmi iki il vaxt, daha dəqiq deyilsə 98 həftə qalır. Mehriban xanım əmin olduğunu billdirmişdir ki, oyunların yüksək səviyyədə keçirilməsi üçün dövlətin qarşıya qoyduğu məsələlər yəqin ki, uğurla həll ediləcəkdir.

İclasda ümumi baxışı və atletlər kəndinin master planını təqdim edən cənclər və idman naziri Azad Rəhimov Olimpiya kəndində aparılan hazırlıq işlərindən danışmışdır. Burada təxminən 7 min 300 atletin qidalanması və istirahəti üçün bütün şərait yaradılacaqdır.

İclasda Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Avropa oyunları üzrə işçi qrupunun icrası məsləhətçisi Daq Arnot, təhlükəsizlik üzrə məsləhətçi, işçi qrupunun üzvü Peter Aşvin, nəqliyyat naziri Ziya Məmmədov, milli təhlükəsizlik naziri Eldar Mahmudov, daxili işlər naziri Ramil Usubov, Prezident Administrasiyası rəhbərinin müavini Əli Əsədov, maliyyə naziri Samir Şərifov çıxış edərək Bakıda keçiriləcək Avropa oyunlarının keçirilməsi üçün görüləcək hazırlıq işlərinin başlandığından, hər bir istiqamət üzrə qarşıda duran vəzifələrin həlli üçün görüləcək işlərin sürətləndirilməsindən danışmışlar.

İclasa yekun vuran Mehriban xanım Əliyeva aidiyyatı qurumlar arasında geniş və sıx əməkdaşlığın qurulmasının vacibliyini vurğulamış və oyunların yüksək səviyyədə keçirilməsinə əmin olduğunu bildirmişdir.

**N. ATAKİŞİYEV.**

# «MDB-nin mədəniyyət paytaxtları-2013» dövlətlərarası proqramının təntənəli açılışı və Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə bağlı sertifikatın təqdim edilməsi mərasimi olmuşdur

**(Əvvəli 2-ci səhifədə).**

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Qəbələnin mədəniyyət paytaxtı seçilməsi ilə bağlı qərarın ötən il dekabrın 5-də qəbul edildiyini bildirmiş, bu şəhərin mədəniyyət paytaxtı seçilməsində əməyi olanlara minnətdarlıq etmişdir. Vurğulamışdır ki, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qəbələdə dünya əhəmiyyətli mədəni tədbirlər keçirilmişdir.

Qeyd edilmişdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün Qəbələ öz qədim və tarixi görkəmini saxlamaqla müasirləşir. ***(Səbuhi Abdullayevin çıxışı qəzetimizdə dərc olunur).***





Mərasimdə Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsi sədrinin müavini Toktasın Buzubaev MDB İcraiyyə Komitəsinin sədri Sergey Lebedevin təbrik məktubunu oxumuşdur.

Məktubda bildirilir ki, Qəbələyə bu adın verilməsi təsadüfi deyildir. Burada incəsənətin gözəlliyi ilə təbiətin gözəlliyi vəhdət təşkil edir. Toktasın Buzubaev burada keçirilən mədəni tədbirlərin nəinki MDB, eləcə də dünya mədəni irsinə töhfələr verdiyini demişdir.

Rusiya Federasiyasının mədəniyyət naziri Vladimir Medinskinin təbrik məktubunu isə bu ölkənin Mədəniyyət Nazirliyinin MDB ölkələri ilə iş bölməsinin rəhbəri Anton Nazarov oxumuşdur.

Məktubda bildirilir ki, Qəbələnin bu ada layiq görülməsi şəhərin zəngin mədəniyyəti və tarixi ilə bağlıdır.

Azərbaycanın Rusiyadakı səfiri, MDB-nin üzv dövlətlərinin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun İdarə Heyətinin sədri Polad Bülbüloğlu Qəbələnin MDB şəhərləri arasında mədəniyyət paytaxtı seçilməsini təqdirəlayiq hesab etmişdir. Səfir bununla bağlı ilin sonunadək Qəbələdə müxtəlif mədəni tədbirlərin keçiriləcəyini qeyd etmişdir.

Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə bağlı sertifikat rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə təqdim olunmuşdur.

Mərasimin sonunda Qəbələ Mədəniyyət Mərkəzində MDB ölkələrindən olan yaradıcı kollektivlərin iştirakı ilə maraqlı konsert proqramı təşkil olunmuşdur.

**AzərTAc.**

**Fotlar S. Umuyevindir.**